AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 9/10

Bakı şəhəri 24 aprel 2019-cu il

Azərbaycanın görkəmli alimlərinin adına
AMEA-nın mükafatlarının təsis edilməsi haqqında

Elmin inkişafına böyük töhfələr verən və mühüm elmi nailiyyətlər qazanan alimləri daha yüksək səviyyəli tədqiqatlar aparmağa həvəsləndirmək, həmçinin Azərbaycanın bir sıra görkəmli alimlərinin xatirəsini əbədiləşdirmək məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. AMEA-nın aşağıdakı mükafatları təsis edilsin:
   1.1. Akademik Əşrəf Hüseynov adına mükafat;
   1.2. Akademik Əli Quliyev adına mükafat;
   1.3. Akademik Mirəli Qaşqay adına mükafat;
   1.4. Akademik Ələşrəf Əlizadə adına mükafat;
   1.5. Akademik Vahab Əliyev adına mükafat;
   1.6. Akademik Cəlal Əliyev adına mükafat;
   1.7. Akademik Məmmədcəfər Cəfərov adına mükafat;
   1.8. Akademik Məmmədağa Şirəliyev adına mükafat;
   1.9. Abbasqulu Ağa Bakıxanov adına mükafat.
2. AMEA Rəyasət Heyəti aparatının Elm və təhsil baş idarəsinə (AMEA-nın müxbir üzvü Əminağa Sadıqov) tapşırılsın ki, Azərbaycanın görkəmli alimlərinin adına təsis edilmiş AMEA-nın mükafatları haqqında əsasnamələrin layihələri bir ay müddətində hazırlanıb AMEA-nın Rəyasət Heyətinə təqdim edilsin.
3. AMEA Rəyasət Heyətinin 05 fevral 2014-cü il tarixli 2/7 nömrəli və 11 iyun 2014-cü il tarixli 12/11 nömrəli qərarları qüvvədən düşmüş hesab edilsin.
4. Qərarın icrasına nəzarət AMEA-nın akademik-katibi, akademik Rasim Əliquliyevə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ APARATI PROTOKOL ŞÖBƏSİ